1_Layout 1 31.01.2019 10:54 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 02 (543)

01 fevral 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəhid ailələri ilə görüşüb

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər. AZƏRTAC-ın görüşlə bağlı hazırladığı materialı ixtisarla təqdim edirik.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib:

- Hörmətli şəhid ailələrinin nümayəndələri.

Mən sizi bu gün görüşə dəvət etmişəm. İlk növbədə, sizə öz dərin hörmətimi ifadə etmək istəyirəm. Sizin yaxınlarınız torpaq uğrunda, Vətən uğrunda həlak olmuş, şəhidlik zirvəsinə yüksəlmişlər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

1990-cı illərin əvvəllərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız işğal altına, bir milyondan çox soydaşımız qaçqın, məcburi köçkün vəziyyətinə düşmüşdür. Biz minlərlə şəhid verdik, on minlərlə insan yaralandı, əlil oldu. O vaxt Azərbaycanda hakimiyyətsizlik dövrü idi. Bizim məğlubiyyətimizin əsas səbəbi ondan ibarət idi ki, o vaxt Azərbaycanda güclü lider yox idi. Müxtəlif qruplaşmalar hakimiyyət uğrunda mübarizə aparırdılar, bir-birinə qarşı təxribat törədirdilər və Ermənistan bundan istifadə edib torpaqlarımızın bir hissəsini zəbt etmişdir. Tam qətiyyətlə deyə bilərəm, - mən bunu dəfələrlə demişəm, - əgər o vaxt Heydər Əliyev Azərbaycanın rəhbəri olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi.

1990-cı illərin əvvəllərində AXC-Müsavat cütlüyünün xəyanətkar fəaliyyəti nəticəsində xalqımız böyük faciə ilə üz-üzə qalmışdır. Siz bilirsiniz, bu gün biz çalışırıq ki, bu məsələni həll edək. Ordu quruculuğuna çox böyük diqqət göstərilir. Bizim ordumuz döyüş meydanlarında da öz gücünü göstərmişdir. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Biz bir neçə strateji mövqeyi işğalçılardan azad etmişik və o bölgələrdə, o yüksəkliklərdə Azərbaycan bayrağını qaldırmışıq. Bu gün Lələtəpədə, Ağdərə dağlarında, Naxçıvan dağlarında - hansılar ki, işğal altında idi, bu gün Azərbaycanın dövlət bayrağı dalğalanır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir. Ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir. Diplomatik müstəvidə biz maksimum nəticəyə nail ola bilmişik. Bu gün bütün dünya bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını bildirir. Çoxsaylı qətnamələr, qərarlar, ikitərəfli formatda imzalanmış müqavilələr, bəyannamələr ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə edir. Dünyanın aparıcı beynəlxalq təşkilatları - BMT, onun Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar bu münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmasını tələb edir. Yəni, biz bütün vasitələrdən istifadə edirik ki, məsələni həll edək, torpaqlarımızı işğalçılardan azad edək.



Müharibədən əziyyət çəkən vətəndaşlara daim diqqət, qayğı göstərilir. Məcburi köçkünlər üçün son illər ərzində yüzdən çox şəhərcik və qəsəbə tikilmişdir. Təkcə keçən il 5900 məcburi köçkünə mənzillər, fərdi evlər verilmişdir. Bu proses bu il də davam etdiriləcək. Şəhid ailələrinə dövlət tərəfindən dəstək göstərilir. Bu günə qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə minik avtomobilləri verilmişdir. Yəni, bu, dövlətimizin şəhid ailələrinə olan münasibətinin təzahürüdür. Mən bilmirəm, hansı başqa ölkədə öz vətəndaşlarına, ağır vəziyyətdə yaşayan vətəndaşlara, yaxınlarını itirmiş vətəndaşlara bu qədər diqqət, bu qədər qayğı göstərilsin.

Şəhid ailələrinə diqqət, eyni zamanda, keçən il özünü bir daha göstərdi. Keçən ilin aprel ayında Azərbaycan xalqı bir daha mənə etimad, inam göstərdi, məni Prezident vəzifəsinə seçdi. Mənim birinci Fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Təbii ki, bu, təsadüfi deyil. Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab etdim ki, birinci Fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu Fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur. Yenə də deyirəm, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəmirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir.

Artıq ödəmə prosesi başlamışdır. Mənə verilən məlumata görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni, o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni Fərman imzaladım. Bu Fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur.

Təbii ki, bu, böyük vəsait tələb edir. Bu proqramın icrası üçün dövlət büdcəsindən ümumilikdə 135 milyon manat vəsait nəzərdə tutulur. Bu, kifayət qədər böyük məbləğdir. Biz çalışırıq ki, hər bir vəsaitə çox qənaətlə yanaşaq. Biz çalışırıq ki, bu gün ölkəmizin iqtisadi, sosial inkişafını şərtləndirən istiqamətlərə böyük dəstək verək. Ancaq mən həmişə demişəm ki, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir. Ona görə bu qərarın qəbul edilməsi, ilk növbədə, ədalətlidir və digər tərəfdən, Prezidentin Fərmanından sonra bu, artıq rəsmi sənəd olaraq qüvvəyə minir. Bu iki amili biz təmin etmişik.

Mən bir daha demək istəyirəm ki, bundan sonra da vətəndaşların sosial məsələləri daim diqqət mərkəzində olacaq. Şəhid ailələri üçün bundan sonra da evlər tikilib istifadəyə veriləcək. Təkcə keçən il 626 şəhid ailəsinə yeni mənzillər, yeni evlər verilmişdir. Bu il əlavə 800 şəhid ailəsinə yeni mənzillər, evlər veriləcəkdir. Növbəti bir neçə il ərzində bütün şəhid ailələri evlərlə, mənzillərlə təmin ediləcəklər. Bir dənə də şəhid ailəsi qalmayacaq ki, dövlət ona ev və ya mənzil verməsin.

Bu, bizim siyasətimizdir, bu, bizim yolumuzdur, biz bu yolu gedirik. Bu gün sizi buraya, Prezident Sarayına dəvət edərək istədim ki, bu sözlərimi, bu fikirlərimi sizə özüm çatdırım. İstədim ki, bir daha sizinlə görüşüm, bir daha sizə öz təşəkkürümü, dərin hörmət və ehtiramımı bildirim. Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, siz bundan sonra həyatda heç vaxt belə dəhşətli faciələrlə üz-üzə qalmayasınız. Sağ olun.

Sonra dövlətimizin başçısı birdəfəlik ödəməni almaq üçün istifadə olunan plastik kartları şəhid hərbi qulluqçuların vərəsələrinə təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

***Yanvarın 28-də Daxili İşlər Nazirliyində 2018-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.***



İclası giriş sözü ilə açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən, Heydər Əliyev strateji kursunun, fəal hüquq-mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən ictimai asayiş və sabitlik 2018-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası təmin edilib.

Respublikada əməliyyat şəraiti bütövlükdə nəzarətdə saxlanılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı baxımından ölkəmizin ötən il də MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olması diqqətəlayiq fakt kimi vurğulanıb.

Daha sonra Daxili İşlər Naziri general-polkovnik R.Usubov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2018-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.381 cinayət qeydə alınıb, onların 84,7 faizinin açılması təmin olunub.

Bu cinayətlərin 92,4 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmaqla onların 89,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib. Ağır və xüsusilə ağır cinayətlər 24,3, adam öldürməyə cəhdlər 3,1, qəsdən sağlamlığa ağır zərər vurmalar 16, mülkiyyət əleyhinə cinayətlər 7,7, o cümlədən quldurluqlar 4,8, avtonəqliyyat vasitəsinin qaçırılması 7, dələduzluqlar 28, habelə qrup halında törədilən cinayətlər 2,2, ailə münaqişəsi zəminində baş verənlər 4,5, yol-nəqliyyat hadisələrində ölənlər 3,7, xəsarət alanlar 0,5 faiz azalıb.

Ümumən, polisin əsas funksiyalarından olan cinayətlərin açılması 85,5 faiz təşkil edib. Məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan 3794 nəfər və ya müqayisə edilən dövrə nisbətdə 11 faiz çox təqsirləndirilən şəxs tutulub. Bütövlükdə, axtarış işinin nəticələri 3,1 faiz yaxşılaşaraq 74,5 faiz təşkil edib.

Nazir diqqətə çatdırıb ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2277 cinayət törətmiş 869 cinayətkar qrup zərərsizləşdirilib, polis əməkdaşlarına silahlı müqavimət göstərən 5 nəfər məhv edilib.

Məruzədə yol-nəqliyyat hadisələrinin dinamikasında, qəzalarda ölən və xəsarət alanların sayında artıq altıncı ildir ki, nəzərəçarpan azalmanın müşahidə olunduğu nəzərə çatdırılıb. Bildirilib ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması 1,3 faiz artaraq 3.409.698 inzibati xəta təşkil edib. Ümumilikdə, daxili işlər orqanlarının bütün struktur qurumları üzrə müxtəlif inzibati xətalara görə 3.442.148 protokol tərtib edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı 2018-ci ildə də mühüm tədbirlər görülüb. Bununla yanaşı, ölkədə keçirilmiş 735, o cümlədən, 489 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının və ərazi polis orqanlarının şəxsi heyəti tərəfindən asayişin və təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyi də diqqətə çatdırılıb.

Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxış edərək ölkə Prezidenti zatialiləri cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın 2018-ci ildə də dinamik şəkildə inkişaf etdiyini, dünyada və bölgədə baş verən neqativ tendensiyalara, qlobal proseslərə baxmayaraq, Azərbaycanın müstəqillik yolu ilə inamla irəlilədiyini, hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini qeyd edib.

Ötən il Azərbaycan Polisinin də 100 illiyinin böyük təntənə ilə qeyd edilməsini təkcə daxili işlər orqanlarının deyil, xalqımızın da həyatında əlamətdar hadisə kimi dəyərləndirən cənab F.Ələsgərov möhtərəm Prezidentimizin ictimai qaydanın, insan hüquq və azadlıqlarının nümunəvi qorunmasında, cinayətkarlıqla qətiyyətli mübarizədə daxili işlər orqanlarının rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini, onun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, şəxsi heyətin iş, məişət şəraitinin və sosial müdafiəsinin daha da yaxşılaşdırılması üçün lazımi tədbirlərin görüldüyünü, Azərbaycan Polisinin dövlətçiliyin qorunmasında əsas dövlət təsisatı olduğunu bildirib. Respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, cinayətlərin yüksək açılma göstəricilərinin arxasında şəxsi heyətin gecəli-gündüzlü, fədakar xidmətinin dayandığını vurğulayıb.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Naziri Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Seyfulla Əzimov, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov, Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran general-polkovnik Ramil Usubov 2018-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcud olduğunu bildirib, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib.

Daha sonra nazir son günlər əsasən radikal müxalifəti təmsil edən destruktiv qüvvələrin paytaxtda guya icazəli mitinq keçirmək adı altında polis əməkdaşları ilə bilərəkdən qarşıdurma yaratmaqla, vətəndaşların istirahət hüquqlarını, sabitliyi, əmin-amanlığı, ictimai qaydanı kobud şəkildə pozmaqla, insanlarda qorxu və çaşqınlıq yaratmaqla müşayiət olunan hüquqazidd əməllərinə münasibət bildirib. O, son günlər özlərini yenidən gündəmə gətirmək istəyən müxalifət düşərgəsinin bəzi mənsublarının səsləndirdikləri, “polis qorxdu”, “hökumət geri çəkildi” kimi öz ətraflarını cürətləndirmək arzusundan doğan fikirlərin gerçəklikdən çox uzaq, heç vaxt reallaşmayacaq bir arzu olduğunu xatırladaraq, hər bir şəxsin bildiyi sadə həqiqətləri diqqətə çatdırıb.

Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin milli maraqlardan qaynaqlanıb möhkəm təməllər üzərində qurduğu dövlətçiliyimizlə, cənab Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən ölkəmizin uğurları ilə bu gün hər bir azərbaycanlı fəxr edir. Ötən 26 ildə məhz bu iqtidarın həyata keçirdiyi müdrik siyasət nəticəsində xaosa, anarxiyaya son qoyulub, Ermənistanın ölkəmizə təcavüzünün qarşısı alınıb, insanların pozulmuş hüquqları, dövlətə, hakimiyyətə, gələcəyə olan inamı bərpa edilib. Lakin respublikamızda əmin-amanlığın, təhlükəsizliyin daimi və davamlı olduğunu görüb qorxuya düşən, günü-gündən gözəlləşən, dünyanın ən yaraşıqlı paytaxt şəhərlərindən birinə çevrilən Bakımızın, həmçinin, regionlarımızın inkişafından xoflanan, vətəndaşlarımızın, xüsusən qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin ilbəil daha əhatəli həllindən rahatsızlaşan, ordumuzun qüdrətinin artmasından, onu yüksək nizam-intizamlı, vətənpərvər, torpaqlarımızı işğaldan azad etməyə hər zaman qadir və döyüş ruhunu gördükcə kədərlənən, yüz minlərlə gənclərimizin Vətənimizin işıqlı gələcəyi, müasir Azərbaycanın daha sürətli inkişafı üçün göstərdiyi böyük coşqudan və çalışqanlıqdan məyus olan, xalq-iqtidar birliyinin sarsılmazlığından, onun bəhrələri olan inkişafdan, tərəqqidən, irəliləyişlərdən, yüksəlişlərdən əndişələnən bu antimilli qüvvələr həqiqətən də qorxuya düşüblər.

Onlar növbəti təxribatlara əl atmaqla xalqımızı yenidən daxili çəkişmələrə, parçalamağa, ölkəmizi böhrana, bir vaxtlar yaratdıqları, indi isə xiffətini çəkdikləri özbaşınalıq və hərcmərclik dövrünə sürükləməyə cəhdlər edirlər. General-polkovnik R.Usubov milli maraqlarımıza zidd olan belə avantürist hərəkətlərin qarşısının xalqımızın dəstəyi, qanunlarımızın gücü, dövlətimizin hüquq-mühafizə orqanlarının sıx birliyi ilə bundan sonra da alınacağını bildirib.

2 - 2_Layout 1  31.01.2019  10:42  Page 1



# TƏRBİYƏ İŞLƏRİ ÜZRƏ BÖLMƏ RƏİSLƏRİ-BAŞ TƏLİMATÇILAR, TƏLİMATÇILAR VƏ TƏLİMATÇI-PSİXOLOQLARLA METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB



Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planına əsasən, yanvar ayının 24-də 25031 saylı hərbi hissədə Ali Hərbi Məktəbin və hərbi hissələrin tərbiyə işləri üzrə bölmə rəisləri-baş təlimatçıları, təlimatçıları və təlimatçı-psixoloqları ilə metodiki-təlim toplanışı keçirilib.

Toplanış zamanı DQBİ-nin mənəvi-psixoloji hazırlıq şöbəsinin zabitləri tərəfindən keçirilən məşğələlərdə hərbi hissələrin tərbiyə işləri üzrə bölmə rəisləri-baş təlimatçılara, təlimatçılara və təlimatçı-psixoloqlara Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Hərbi hissələrdə, bölmələrdə qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə dair rəhbər sənədlərin tələbləri" çatdırılıb, onlara təhqiqat işinin təşkili və aparılması, mədəni-maarif əmlakları üzrə inventarizasiya işinin təşkili, hərbi intizamın təhlili üsulları, hərbi qulluqçuların nizam-intizamının möhkəmləndirilməsində tərbiyə işinin forma və metodları, həmçinin, tərbiyə bölməsinin zabitlərinin məqsədli qrupların tərkibində bölmələrdə işi, eyni zamanda, ictimai təşkilatların iş fəaliyyətinə nəzarət qaydaları öyrədilib.

Bundan əlavə, hərbi qulluqçuların xarakterik xüsusiyyətlərinin dərindən öyrənilməsi məqsədilə toplanışa Azərbaycan Respublikası Psixososial reabilitasiya və İnkişaf İctimai Birliyində ictimaiyyətlə iş departamentinin rəhbəri, kriminalist-psixoloq, fizioqnomika elmləri namizədi Rəşad Əhmədov dəvət edilib və onun tərəfindən "Fizioqnomika elminin şəxsiyyətin öyrənilməsində rolu və əhəmiyyəti" mövzusunda məşğələ keçirilib.

Metodiki-təlim toplanışında, həmçinin, cari ildə hərbi hissələrdə yol verilmiş nöqsanların təhlili aparılaraq, gələcəkdə təkrarlanmaması istiqamətində aidiyyəti üzrə əlavə tapşırıqlar verilib.

**Mənəvi-psixoloji hazırlıq şöbəsi**

# Təlim-tədris prosesi təcrübəli müəllim heyəti tərəfindən həyata keçirilir

***Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 fevral tarixli 1358 nömrəli Sərəncamına əsasən yaradılmış "Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi" ali və əlavə təhsil proqramlarını həyata keçirən, tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət ali hərbi təhsil müəssisəsidir.***

Ali Hərbi Məktəbdə tədris prosesi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Daxili İşlər Nazirinin və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmr və direktivlərinin tələblərinə uyğun olaraq təşkil olunur. Ali Hərbi Məktəbdə tədris Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun keçirilir.

Daxili Qoşunların Ali Hərbi Məktəbi "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" və "İctimai təhlükəsizlik və idarəetmə" ixtisasları üzrə kadrların hazırlanmasını həyata keçirir.

Məktəbin fəaliyyətinin əsas istiqamətləri tədris, təlim-tərbiyə və metodiki işlərdən ibarətdir.

Tədris işi hərbi-nəzəri və hərbi-praktiki biliklərə yiyələnmiş, intellektual təfəkkürə malik, taktiki səviyyədə komanda və digər vəzifələrdə xidmət etmək üçün ali təhsilli zabit kadrları hazırlamaqdan, əlavə təhsili və təlim məşğələlərini həyata keçirməkdən, təcrübi məşğələlərə rəhbərlik etməkdən ibarətdir.

Təlim-tərbiyə işi şəxsiyyətin formalaşması üçün mütəşəkkil təşkil olunmuş məqsədyönlü prosesdir və hərbi-vətənpərvərlik, mənəvi-əxlaqi, estetik tərbiyə, hüquqi və fiziki hazırlıq məsələlərinin həllinə kompleks yanaşma əsasında tədris prosesi ilə birgə aparılır.

Metodik işin məqsədi bütün növ tədris məşğələlərinin keçirilməsi metodikasını təkmilləşdirmək, onun keyfiyyətini və effektivliyini artırmaq, rəhbər heyətin, professor-müəllim heyətinin və təhsilalanların komandirlərinin peşə səviyyəsini artırmaqdır.

Məktəbdə tədris prosesinin təşkilində əsas ideya kursantlara bilik almaq üçün maksimum geniş imkanların yaradılmasıdır. Bu cür tədris gerçək mühitin bütün müxtəlifliklərinə baxmayaraq, ona optimal şəkildə uyğunlaşmağa imkan verir.

Məktəbdə Təlim-tədrisin planlaşdırılması zamanı kursantların Daxili Qoşunların ehtiyaclarına və dövrün tələblərinə uyğun təhsilin verilməsi və qazandıqları bilikləri nə vaxt, harada, necə tətbiq edəcəkləri praktiki olaraq göstərilir, təlim-tədrisdə kursantların savadlı və bacarıqlı bir hərbi qulluqçu kimi hazırlanmasına fikir verilir, sistemli bir şəkildə fərdi və qrup halında çalışmalar təşkil edilib keçirilir.

Ali Hərbi Məktəbin təlim və tədris üzrə əsas məqsədi hər bir kursantı;

- vətənə, dövlətə, dövlətçiliyə, həmçinin, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük keyfiyyətlərinə malik, Azərbaycan Respublikasının qanunlarına və hərbi nizamnamələrinin tələblərinə sözsüz əməl etməyə qadir və bunları şəxsi heyətə aşılamağı bacaran,
- biliklərə və praktiki vərdişlərə malik olan, silah, hərbi texnikanın səmərəli istismarını, şəxsi heyətlə təlim-tərbiyə işini qurmağı, qanunlara müəyyən edilmiş qaydalara ciddi əməl olunmasını təmin etməyi bacaran,
- rəhbərlik etdiyi bölmənin vəzifə analizini və təlim tapşırıqlarını müəyyən edən, təlim məşğələlərini yüksək səviyyədə təşkil edərək bölməsinə öyrədə bilən bir komandir hazırlamaqdır,

Kursantlara köməklik göstərmək məqsədilə Ali Hərbi Məktəbdə akademik məsləhətçilər (tyutorlar) xidməti təşkil olunur. Tyutorlar, bir qayda olaraq fənn müəllimlərindən təyin olunur və



kursantlara dərslərə hazırlıqda zəruri məsləhətlər verərək, onlara lazımi köməklik göstərirlər.

Kursantlarla günün nizam qaydalarında göstərildiyi vaxtda müstəqil hazırlıq saatı keçirilir. Müstəqil hazırlıq saatında kursantlar qazanılmış bilik və bacarıqları möhkəmləndirir, tədris tapşırıqlarını icra edir, növbəti məşğələyə və imtahanlara hazırlaşır.

Məktəbin kursantları gələcək ixtisasına uyğun vəzifələrdə xidmət təcrübəsinin əldə olunması məqsədilə qoşun təcrübəsinə cəlb olunurlar. Qoşun təcrübəsi Ali Hərbi Məktəbin tədris planına əsasən, Daxili Qoşunların hərbi hissələrində keçirilir. Qoşun təcrübəsi kursantların Ali Hərbi Məktəbdə aldıqları nəzəri biliklərin möhkəmləndirilməsində və öz ixtisaslarına uyğun praktiki vərdişlərin qazanılmasında əsas tədris fəaliyyətidir.

Kursantların nəzəri biliklərinin möhkəmləndirilməsi, praktiki vərdişlərinin artırılması, döyüş şərtlərinə yaxın şəraitlərdə bölmələrin idarə edilməsi üsullarına yiyələnmələrini, həmçinin, təhkim olunmuş silah və texnikanı mükəmməl mənimsənilməsinin təmin etmək üçün Məktəbin tədris planına uyğun olaraq praktiki təlimlər keçirilir. Kursantlar təlimlərdə bölmə komandiri və həmçinin, təlimin məqsədinə uyğun olaraq digər vəzifələri icra edirlər.

Kursantlar tərəfindən tədris proqramlarının mənimsənilməsinə nəzarət tədbirlərinə cari və aralıq qiymətləndirmə, həmçinin, məzunların yekun (dövlət) attestasiyası daxildir. Ali Hərbi Məktəbin zabit hazırlayan tədris taborunun kursantlarının qiymətləndirilməsi "Daxili Qoşunların Ali Hərbi Məktəbində kursantların biliklərinin çoxballı sistemlə qiymətləndirilməsinin təşkili haqqında təlimat"ın tələblərinə əsasən həyata keçirilir.

Məktəbin xarici əlaqələri və beynəlxalq əməkdaşlığı, həmçinin, kadrların hazırlanması sahəsində beynəlxalq əməkdaşlığı Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr, o cümlədən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə xarici ölkələrin dövlət orqanları arasında bağlanmış sazişlər əsasında həyata keçirilir.

**AHM-də tədris şöbəsinin rəisi**
**polkovnik-leytenant Kənan Yüzbaşıyev**

# DAXİLİ QOŞUNLARDA GƏNC ÇAĞIRIŞÇILARIN QƏBULU YÜKSƏK SƏVİYYƏDƏ HƏYATA KEÇİRİLİB

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına əsasən, yanvar ayının 1-dən etibarən 18 yaşı tamam olmuş, habelə yaşı 35-dək olan Azərbaycan Respublikasının vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırılması prosesinə başlanılıb. Bu proses Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında da həyata keçirilib. Bu məqsədlə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının "Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında" müvafiq əmrinə əsasən, çağırışçıların tibbi müayinəsinin aparılması və mənəvi-psixoloji durumunun qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb.

Qrupun fəaliyyəti və görülən digər işlər barədə ətraflı məlumat almaq məqsədilə qoşunların 25031 saylı hərbi hissəsində oldum.

Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Ramin Məmmmədov bildirdi ki, qəbul prosesi Daxili Qoşunlar və hissə komandanlığının ciddi nəzarəti altında həyata keçirilib. Çağırışçılar hərbi hissəyə qəbul olunarkən qəbul komissiyasında seçim qrupunun üzvü - Daxili Qoşunların Baş İdarəsində mənəvi-psixoloji hazırlıq şöbəsinin zabiti mayor Xosrov İbrahimov tərəfindən onlarla söhbətlər aparılıb, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi üçün Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında çağırışçılara məlumat verilib.

Hərbi hissədə komissiyanın fəaliyyəti ilə yaxından tanış olarkən məlum oldu ki, mayor X.İbrahimov çağırışçılarla söhbət edir, onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, yaxın qohumlarının məhkumluğunun olub-olmaması, eləcə də onların hərbi xidmətə münasibətləri barədə məlumat alır. Məlumatlar toplandıqdan sonra hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanır və hərbi hissəyə təqdim olunur. Daha sonra çağırışçılar növbə ilə həkim-stomatoloq, həkim ekspert-psixonevroloq və ordinator-oftalmoloq tərəfindən müayinə olunurlar, çağırışçıların profilaktik flüoroqrafik müayinədən keçirilməsi də təmin olunur. Qeyd edim ki, seçim qrupunun normal işi üçün hərbi hissədə zəruri şərait yaradılıb. Səhhətləri ilə yanaşı, çağırışçıların əşya əmlakları ilə təmin olunmaları da daim diqqətdə saxlanılıb. Belə ki, onlar hərbi hissənin təminat bölüyündə əşya anbarı rəisi gizir Şahin Məmmədov tərəfindən bədən ölçülərinə uyğun olan geyimlərlə də təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra onlarla hərbi hissədə hissə komandiri, bölük və taqım komandirləri tərəfindən psixoloji söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün müvafiq məsləhətlər verilib.

Polkovnik-leytenant R.Məmmədov bu işdə təlimatçı-psixoloq baş leytenant Cəmilə Ələkbərovanın rolunu xüsusilə vurğuladı. Bildirdi ki, çağırışçılarla ilk gündən başlayaraq fərdi söhbətlər aparılıb, xüsusi diqqət tələb edənlər nəzarətə götürülüb və bu barədə hərbi hissə komandirinə məlumatlar verilib. Onlarda ruh yüksəkliyi yaratmaq üçün hər bir tərbiyəçi zabit tabeliyində olanlara qarşı yüksək tələbkarlıq göstərməklə yanaşı, onlara xüsusi qayğı ilə yanaşıb.

Bundan əlavə, hər həftənin şənbə günləri çağırışçıların Daxili Qoşunların muzeyinə gəzintiləri təşkil olunub. Həmçinin, mütəmadi olaraq Daxili Qoşunların Veteranlar Şurasının üzvləri bölüklərdə əsgərlərlə görüşüb, onlarla söhbətlər aparıblar.

İstər veteranlarla görüşlərdə, istərsə də muzeydə onlara Daxili Qoşunların tarixi, döyüş yolu, qəhrəmanlıq nümunələri, həmçinin, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Respublika Prezidenti cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğı barədə ətraflı məlumatlar verilib, hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslər aşılanıb.

Bütün bunlar deməyə əsas verir ki, hərbi hissədə həyata keçirilən tədbirlər çağırışçıların Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçular kimi formalaşmasında mühüm rol oynayacaq.

**baş leytenant Xədicə Hacızadə**











*Nümunəvi xidmət*

# XİDMƏTİLƏ ÖZÜNÜ DOĞRULDAN HƏRBİ QULLUQÇULARIMIZ




12318 saylı hərbi hissənin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Nurlan Məmmədov 1996-cı il iyunun 1-də Zaqatala rayonunun Qımır kəndində dünyaya gəlib. 2002-2013-cü illərdə doğma kənd məktəbində tam orta təhsilə yiyələnib. Təhsilini bitirdikdən sonra 2014-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə qəbul olunub. Komendant bölüyündə xidmət edən hərbi qulluqçumuz elə həmin vaxtlar öz gələcəyini hərbi xidmətə həsr etməyi qərara almışdı. 2016-cı ildən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 12318 saylı hərbi hissəsində xidmətini davam etdirir və hazırda xüsusi vasitələrin tətbiqi bölməsində atıcı vəzifəsindədir.

Baş əsgər N.Məmmədov üzərinə düşən vəzifələri və hərbi hissə komandanlığı tərəfindən verilən tapşırıqları vaxtında, dəqiqliklə yerinə yetirir. Hərbi xidmətdə nizam-intizamlı olmağı ən vacib amillərdən sayan Nurlan Daxili Qoşunların hərbi qulluqçusu kimi üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edir. Digərlərindən daha bacarıqlı olması, ayıq-sayıqlığı və vəzifə borclarının icrasına məsuliyyətlə yanaşması ilə fərqlənir. Keçirilən məşğələlər zamanı fəallıq göstərən hərbi qulluqçu fiziki hazırlıq məşğələlərində xüsusi həvəslə iştirak edir. Bunun nəticəsidir ki, o, 2018-ci ildə hərbi hissədə keçirilən ümumi inspeksiya yoxlamasını əla qiymətlərlə başa vurub. Hərbi qulluqçumuz şəxsi heyət arasında da böyük nüfuza malikdir. O, bundan sonra da verilən hər bir tapşırığın icrasında bütün gücünü səfərbər edəcəyini və qazandığı uğuru əldən verməyəcəyini xüsusi olaraq vurğuladı.

Hərbi hissənin digər nümunəvi müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Azər Əliyevdir. O, 1992-ci il mayın 17-də Cəlilabad rayonunun Bəcirəvan kəndində anadan olub. 2010-cu ildə orta təhsilini başa vuran gənc oğlan 2011-2012-ci illərdə Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib.

Hərbçi olmaq arzusuyla yaşayan Azər müddətli hərbi xidmətini başa vurduqdan sonra 2013-cü ildə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 17072 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Hazırda 12318 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində atıcıdır.

Xidmətə başladığı ilk günlərdən intizamı, məsuliyyəti və cəsarəti ilə komandirlərinin rəğbətini qazanan hərbi qulluqçumuz günün nizam qaydalarına ciddi riayət edərək, verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşır. Əsgər A.Əliyev fiziki hazırlıq və atəş hazırlığı məşğələlərində böyük həvəslə iştirak edir. Təhkim olunmuş silahın taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyir, silahın qorunması, təmizlənməsi qaydalarına ciddi riayət edir, silahını göz bəbəyi kimi qoruyur.

Biz də öz növbəmizdə bacarıqlı hərbi qulluqçularımızla fəxr edir, hər ikisinə cansağlığı, şərəfli xidmətlərində müvəffəqiyyətlər arzu edirik.

**baş leytenant Nigar Ağayeva**

3_Layout 1 31.01.2019 11:07 Page 1



*Şəhidlərimiz*

# Ön cəbhə hünər meydanıdır

1992-ci ildən bu günədək Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının "Əsgər" qəzetində şəhidlər mövzusu daim işıqlandırılıb və müxtəlif müəlliflərin imzası ilə faktlara əsaslanan məqalələr yazılıb. Bu mövzu üzrə tədqiqatlar davam etdirilir və toplanan informasiyalar göstərir ki, buna ciddi ehtiyac var. Belə ki, şəhid hərbi qulluqçularımızın müəyyən bir qismi barədə dərc edilən informasiya mənbəyi ya yoxdur, ya çox köhnəlib, ya məhduddur, ya da dolğun deyil. Həmçinin, nəzərə almaq lazımdır ki, ötən illər ərzində ailələrinin müraciətlərinə baxılaraq, ayrı-ayrı məhkəmələrin qəbul etdikləri müvafiq qətnamələrlə bir çox itkin hərbi qulluqçumuz müharibədə ölmüş elan olunub. Beləliklə, onlara da şəhid statusu verilib. Ona görə də redaksiya olaraq qarşımıza məqsəd qoymuşuq ki, Qarabağ müharibəsində Daxili Qoşunların şəhid olmuş bütün hərbi qulluqçularının döyüş yolu geniş tədqiq və təbliğ olunsun, onların ailələri haqqında da tutarlı məlumat bazası yaradılsın, habelə hazırlanan məqalələr "Əsgər"in səhifələrində və qoşunların internet saytında dərc edilməklə yanaşı, ictimai maraq doğuran ayrı-ayrı internet resurslarında da yerləşdirilsin.

Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının siyahısında əksəriyyəti əsgərlərdir. Müharibədə əsgər heyəti daha çox itkiyə məruz qalır. Gənc yaşlarında döyüş sınağı ilə üzləşmiş və fədakarlıq nümunələri göstərmiş əsgərlərimiz arasında şəhid olanların adı xüsusi ehtirama layiqdir.



ŞƏHİD RÖVŞƏN İSMAYILOV

Şəhid hərbi qulluqçumuz əsgər İsmayılov Rövşən Qəzənfər oğlu həyatını Vətən naminə fəda edən oğullardan biridir. O, 1974-cü il yanvarın 28-də Şamxor rayonunun Plankənd kəndində (hazırda Şəmkir rayonunun Keçili kəndi - Y.A.) dünyaya göz açıb. Qəzənfər İsmayılov və Sahibə İsmayılovanın qurduğu çoxuşaqlı ailədə böyüyən Rövşən qayğıkeşliyi, xeyirxahlığı və sadəliyi ilə fərqlənib. Kənddə özünə hörmət qazanan gənclərdən biri olub. Rövşən kənddəki orta məktəbdə təhsilini bitirdikdən sonra rayonda yerləşən peşə məktəbinə qəbul edilib. Hərbi xidmətə çağırılanadək Vəli Xuluflu adına sovxozda (sovxoz ləğv olunduqdan sonra da Xuluflu adı bəzi mənbələrdə yenə də işlənir - Y.A.) işləyib. Halal zəhməti ilə ailəyə kömək etmək üçün çalışıb. O, hərbi xidmətə Şəmkir Rayon Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayonu üzrə yerli qurumu) tərəfindən çağırılıb. Hərbi xidmətə çağırıldığı 1992-ci ildə (istinad etdiyim sənədli mənbələrə görə, 26.09.1992-ci il, ailə üzvlərinin verdikləri məlumata əsasən isə bu tarixdən bir neçə ay əvvəl hərbi xidmətə yola düşüb - Y.A.) Azərbaycan artıq müstəqil dövlət kimi Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunmuşdu. Respublikamıza qarşı Ermənistanın hərbi təcavüzü daha da şiddətli xarakter almışdı. Bir neçə şəhər və rayonumuz düşmən tərəfindən işğal olunmuşdu. Silahlı Qüvvələrimizin, o cümlədən, Daxili Qoşunların formalaşması ağır müharibə gerçəkliyində həyata keçirilirdi. Bir tərəfdən də hakimiyyət böhranı, daxili siyasi qarşıdurmalar dövlətçiliyimizə böyük təhlükə yaradırdı. Vətənin belə çətin günündə vətənpərvər bir gənc kimi Rövşən hərbi qulluqçu olaraq üzərinə düşən məsuliyyəti düzgün dərk edir, döyüşçü bacarıqlarına əzmlə yiyələnirdi. Onu da qeyd edim ki, Rövşənin böyük qardaşı Etibar da həmin vaxt hərbi xidmətə çağırılmışdı və Daxili Qoşunların sıralarında idi.

Daxili Qoşunların Arxivindən verilən müvafiq arayışa görə, əsgər R.İsmayılov qoşunların 25032 və 67987 saylı hərbi hissələrində hərbi xidmət keçib. 67987 saylı hərbi hissənin tərkibində Ağdam və Füzuli rayonlarının ərazisində erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. Hərbi hissənin yüksək döyüş qabiliyyətli taborlarından birinin əsgəri olaraq müharibənin hər üzünü görüb, ölüm-itimli günlərin sarsıntısını yaşayıb. O, düşmənə qarşı qətiyyətlə vuruşub. Döyüşlərdən birində mərmi qəlpəsi onu boğaz nahiyəsindən yaralayıb və hərbi qospitala göndərilib. Hərbi qospitalda müalicə olunduqdan sonra yenidən ön cəbhəyə, döyüşçü yoldaşlarının yanına qayıdıb.

1993-cü ilin sonuna yaxın 67987 saylı hərbi hissə Ağdam rayonu ərazisindən çıxarılaraq Füzuli rayonundakı müəyyən olunmuş döyüş mövqelərini nəzarətə götürüb. O vaxt Daxili Qoşunların bir neçə hərbi hissəsinin şəxsi heyəti bu döyüş zonasında yerləşdirilib. Burada düşmənin Beyləqan istiqamətində irəliləmək məqsədi güdən hücumlarının qarşısı hərbi qulluqçularımız tərəfindən alınıb. 1994-cü ilin yanvar ayının



əvvəllərində isə Horadiz istiqamətində uğurlu hücum döyüşləri oldu. Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın katibi polkovnik Məmməd Hacıyevin o dövrdə komandir olduğu 67987 saylı hərbi hissə bu döyüşlərdə xüsusilə fərqləndi. Füzuli rayonunun bir çox kəndi, o cümlədən Horadiz qəsəbəsi (hazırda şəhər statusundadır - Y.A.), habelə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi düşmən tapdağından azad edildi.

Əsgər R.İsmayılov qeyd olunan döyüşlər zamanı döyüşçü yoldaşları ilə birgə düşmənə sarsıdıcı zərbələr vurub, komandirlərin etimadını doğruldub. Onun qardaşı Etibar da o döyüşlərdə iştirak edib.

Ürəyi Vətən sevgisi ilə döyünən əsgər R.İsmayılovun son döyüşü 1994-cü il yanvar ayının 18-də (Daxili Qoşunların Arxivinin verdiyi arayışda bu tarix göstərilib, ailəsinin verdiyi məlumatda isə 17 yanvar tarixi bildirilir - Y.A.) olub. Həmin tarixdə o, Horadiz yaxınlığındakı döyüş mövqeyində (bəzi məlumatlara görə, Horadizin yaxınlığında yerləşən Qazaxlar kəndi istiqamətindəki döyüş mövqeyi nəzərdə tutulur - Y.A.) düşmən güllələrindən ağır yaralanıb. Rövşən əvvəlcə Daşburundakı hərbi qospitala çatdırılıb, sonra Bakıya göndərilib. Paytaxtın Sabunçu qəsəbəsindəki 3 saylı xəstəxanada cərrahi əməliyyat olunsa da, həkimlər onun həyatını xilas edə bilməyiblər, burada bir neçə gün qaldıqdan sonra - yanvarın 27-də yaralanmanın bədənində doğurduğu ağır fəsadlar səbəbindən Rövşən dünyasını dəyişib. Ölüm haqqında şəhadətnamədə də 27.01.1994-cü il tarixi qeyd edilib.

Şəhid hərbi qulluqçumuz Şəmkir rayonu Keçili kəndinin qəbiristanlığında dəfn olunub. Keçilidəki 2 saylı orta məktəb və burada küçə şəhidin adını daşıyır.

Ramiz Məsimoğlu və Rüfət Hüseynlinin müəllifi olduqları "Ölməz qəhrəman" və Şamxal Rüstəmin müəllifi olduğu "Ölüm sevinməsin qoy!.. Şəmkir şəhidləri" kitablarında şəhid hərbi qulluqçumuz haqqında məlumatlar öz əksini tapıb.

Şəhid əsgərimizin ailəsinə dövlətimizin qayğısı olaraq, Prezident təqaüdü verilir. Onun atası vəfat edib. Anası və digər ailə üzvlərinin, qohumlarının, həmkəndlilərinin, silahdaşlarının, ümumilikdə, onu tanıyanların yaddaşında Rövşən Vətənin şərəfini uca tutan, el-oba qeyrətini çəkən ləyaqətli oğul kimi qalacaq, onun adı gənclərə həmişə örnək olacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# VƏTƏN SEVGİSİ

İnsan doğulduğu gündən ölənədək həyati hisslərlə müşayiət olunur. Hislər içində ən güclüsü sevgi hissidir. Sevginin isə ən dəyərlisi, ən önəmlisi, ən alisi Vətən sevgisidir. Heç nə ilə müqayisəyə gəlməyən Vətən sevgisi insanın millətinə, xalqına, doğma torpağının hər bir daşına, qayasına, çayına, bulağına sevgidir. Vətənə məhəbbət öz şəxsi maraqlarını el-oba yolunda qurban verməkdir.




Azərbaycan xalqı hər zaman Vətəninə bağlı olub, onun hər qarışı uğrunda canından keçməyə hazırdır. Xalqımız bunu tarixin hər səhifəsində sübut edib. Keçmişdə bu yurdun Koroğlu, Cavanşir, Babək kimi igid oğulları olub. Yaxın keçmişə, 90-cı illərə nəzər salsaq isə görərik ki, xalqımız əsl qəhrəmanlıq dastanı yazıb. Bu dastandan bir parça olaraq Daxili Qoşunların sıralarında xidmət etmiş beş cəngavərin, beş igidin adını çəkə bilərik. Şahin, Yalçın, Maqsud, Fərhad və Siyavuşun fədakarlığını xalqımız heç vaxt unutmayacaq. Onlar xalqımızın qəhrəmanlıq tarixinə yeni səhifələr əlavə etdilər. Bu beş döyüşçü nəinki ölümdən qorxmadılar, əksinə, ölümün üstünə getdilər. 1993-cü il 11 dekabrda Füzuli rayonunun Böyük Bəhmənli kəndi ətrafında gedən döyüşlər zamanı dayandıqları səngərdə gələn düşmən tankının qarşısından çəkilmədilər. Vətən sevgisi ölümə qalib gəldi. Və onlar qəhrəmancasına, son damla qanlarınadək vuruşaraq şəhidlik zirvəsinə ucaldılar. Bu beş igid üzərlərinə gələn tankın qarşısından çəkilməyi, qaçıb canlarını qurtarmağı ağıllarından keçirtmədilər. Çünki, Vətən sevgisi onların qəlbini bütünlüklə sarmışdı. Döyüşüb uğrunda canlarını verdikləri həmin yerdə onların abidəsi ucaldılıb.

Qarabağ müharibəsində soydaşlarımız bir qayə ətrafında-Vətəni qorumaq, xilas etmək ətrafında birləşdilər. Eyni hal 2016-cı il aprel döyüşlərində də təkrarlandı. Vətən övladları doğma yurd naminə canlarından keçməklə dünyaya əsl vətənpərvərlik nümunəsi göstərdilər, hərb tariximizdə şərəfli iz qoyub getdilər. Hər iki savaşda qəhrəman, igid, Vətən sevgisilə qəlbləri alışıb-yanan oğul və qızlarımız ölümləri ilə ölümsüzlüyə qovuşdular. Ən uca, ən ali zirvə olan şəhidlik zirvəsinə ucaldılar.

Qarabağ uğrunda gedən döyüşlər xalqımızın övladlarının Vətəni hər şeydən çox sevdiklərini, Azərbaycan adı gələndə canlarını heçə saydıqlarını dünyaya sübut etdi. Bu savaş xalqımızın qəhrəmanlıq salnaməsidir.

Bütöv bir millətin Vətəni sevməsi, vətənpərvər olması onun azadlığı, tamlığı, qurduğu dövlətin tanınması, müstəqil olması və suverenliyi deməkdir. Vətənpərvər olmaq həm də cəmiyyətə, xalqa yararlı şəxsiyyət kimi yetişmək, Vətən üçün çalışmaq, onun qüdrətli olması naminə əlindən gələni əsirgəməməkdir. Bu baxımdan hər kəs yiyələndiyi peşəni mükəmməl mənimsəməlidir ki, Vətənə, dövlətə öz töhfəsini verə bilsin.

Hər bir Azərbaycan vətəndaşı ictimai mövqeyindən, ixtisasından, peşəsindən asılı olmayaraq, lazım olduqda Vətəni müdafiə edən əsgər olmalıdır.

**gizir Ariz Aslanov**

# GƏNCLƏRİMİZİN ƏN ÜMDƏ VƏZİFƏSİ VƏTƏNƏ, ÖLKƏMİZƏ, DOĞMA TORPAĞIMIZA DAİM SƏDAQƏTLİ OLMAQDIR!

"Gənclər günü" MDB məkanında və Şərqi Avropada ilk dəfə olaraq Azərbaycanda qeyd olunub. Hələ ötən əsrin sonlarında ölkədə baş verən gərgin ictimai-siyasi proseslər zamanı fiziki və mənəvi təzyiqlərə məruz qalan, cəmiyyətin laqeydliyi və biganəliyi ilə qarşılaşan sosial qruplardan biri də gənclər idi. Düzdür, həmin vaxtlarda respublikada müxtəlif gənclər təşkilatı yaradıldı. Lakin bu təşkilatlar gənclərin mənəvi-estetik tərbiyəsinin formalaşdırılmasında, onların sosial qayğılarının həll edilməsində mühüm rol oynaya bilmədi. Onların əksəriyyəti əsasən tələbələri və qismən də müharibə iştirakçılarını əhatə edirdi. Gənclərin digər kateqoriyaları isə həmin qurumlardan kənarda qalırdı.




Bu çatışmazlıqların aradan qaldırılmasında, gənc nəslin əsl vətəndaş kimi tərbiyə olunmasında, onların bir qüvvə kimi cəmləşdirilməsində və dövlət gənclər siyasətinin formalaşdırılmasında Milli Lider Heydər Əliyevin rolu danılmazdır. Məhz Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə - 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin birinci forumunun keçirilməsi haqqında, 1997-ci ilin fevral ayının 1-də isə 2 fevral - Azərbaycan Gəncləri gününün elan edilməsi haqqında sərəncamlar imzalandı. Gənclər və İdman Nazirliyi yaradıldı. Bütün bunlar Azərbaycan gənclərinə göstərilən qayğının və diqqətin təzahürü idi. Yalnız bundan sonra digər MDB və Şərqi Avropa dövlətlərində bu bayram qeyd olunmağa başladı.

Gənclərin 1-ci forumunun keçirilməsi, əslində, çox mühüm əhəmiyyət kəsb edən bir tarixi hadisə idi. Tədbirdə Heydər Əliyevin nitqi hər bir Azərbaycan gəncinin gələcək fəaliyyəti üçün həyat devizinə çevrildi: "Gənclərimizin ən ümdə vəzifəsi Vətənə, ölkəmizə, doğma torpağımıza daim sədaqətli olmaqdır. İnsan öz evini, övladlarını, ata-anasını, öz əmlakını, əşyasını qoruduğu kimi, hər bir gənc, hər bir azərbaycanlı, Azərbaycanın hər bir vətəndaşı da eyni zamanda öz doğma Azərbaycan torpağını, Azərbaycan Respublikasını qorumalı, göz bəbəyi kimi saxlamalıdır".

Bu gün cəmiyyətdə gənclərin rolu xüsusilə artmağa başlayıb. Demək olar ki, respublikamızın hər sahəsinin inkişafında, onun iqtisadi cəhətdən qüdrətli bir dövlət kimi tanınmasında gənclərimiz aparıcı qüvvədir. İstər elm, təhsil və incəsənətdə, istərsə də digər sahələrdə Azərbaycan gəncləri daim uğur qazanırlar. Bu gün Azərbaycan gəncliyi bir sıra beynəlxalq qurumlarda da müvəffəqiyyətlə təmsil olunur, beynəlxalq təşkilatlarla - Dünya Türk Gənclər Birliyi, Avropa Gənclər Mərkəzi, əlliyə yaxın təşkilatı özündə birləşdirən Avropa Gənclər Forumu ilə əlaqələrə xüsusi fikir verilir.

Təbii ki, bu uğurların davam, ölkəmizdə gənclər siyasətinin daha da inkişaf etdirilməsində qəbul olunan bir sıra dövlət proqramlarının mühüm rolu olub. "Azərbaycan gəncliyi (2005-2009-cu illər)", "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" dövlət proqramlarının icrası nəticəsində dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib, gənclərdə vətənpərvərlik hisslərinin formalaşması sahəsində davamlı işlər aparılıb, istedadlı və yaradıcı gənclərə dövlət qayğısı artıb, ölkənin ictimai-siyasi həyatında gənclərin yaxından iştirakı üçün lazımi şərait yaradılıb.

Həmçinin, gənc mütəxəssislərin işlə, gələcəyin tələblərinə cavab verən təhsil almaları üçün bərabər imkanlarla təmin edilməsi, gənclərin, o cümlədən, gənc əlillərin sosial müdafiəsinin gücləndirilməsi, onların sosial-iqtisadi problemlərinin həlli və digər mühüm məsələlər də həmin proqramlarda öz əksini tapıb.

"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" dövlət proqramı isə adıçəkilən proqramların məntiqi davamı olaraq, ölkədə gənclər siyasətinin daha səmərəli həyata keçirilməsi, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialını üzə çıxarmaq, gənc nəslin sağlamlığını qorumaq, onların təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq məqsədilə qəbul olunub.

Proqramın icrası ilə bağlı Daxili Qoşunlarda da bir sıra mühüm addımlar atılıb və bundan sonra da davam etdirilməsi nəzərdə tutulur. Belə ki, gənc hərbi qulluqçularımızın maarifləndirilməsi, onların hərbi biliklərinin artırılması istiqamətində bir sıra işlər görülür. Nümunəvi xidmətilə seçilən hərbi qulluqçularımız, şəhid döyüşçülərimizin göstərdikləri qəhrəmanlıqlar, onların rəşadəti, şücaəti, Vətən yolunda fədakarlıqla canlarından keçmələri və digər tərbiyəvi mövzularda kollektiv söhbətlər aparılır, bu barədə məqalələr hazırlanır, kitablar dərc olunur. Eyni zamanda, gənclərə vətənpərvərlik hisslərini aşılayan müxtəlif tədbirlər keçirilir.

Gənc nəslin tərbiyəsində Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ideyaları əsas götürülür. Davamlı olaraq hərbi hissələrdə şəxsi heyətə ölkə rəhbərliyi səviyyəsində gənclərimizə göstərilən diqqət və qayğı, bunun bariz nümunəsi izah olunur.

Nəzərə alsaq ki, bu gün ordu quruculuğu prosesində gənclərin rolu danılmazdır və Silahlı Qüvvələrin əsasını məhz gənclər təşkil edir, o zaman onların düzgün istiqamətdə formalaşmasına daha çox diqqət yetirilməlidir.

Bu baxımdan deyə bilərik ki, Azərbaycan gəncliyinin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi qarşıda duran ən əsas vəzifələrdəndir. Xüsusilə, torpaqlarımızın bir hissəsinin işğal altında olduğu bir vaxtda Vətənin müdafiəsində mətinliklə duran bütün gənc hərbi qulluqçularımız dərindən dərk edirlər ki, Qarabağın və ətraf rayonlarımızın düşməndən azad edilməsində əsas yük onların çiyinlərinə düşəcək. Bu müqəddəs tapşırığın yerinə yetirilməsinə hər bir Azərbaycan gənci hazırdır.

**baş leytenant Xədicə Hacızadə**

4 - 2_Layout 1 31.01.2019 11:13 Page 1



# 2019-cu il Azərbaycanda “Nəsimi ili” elan edilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyini nəzərə alaraq bu ili ölkəmizdə “Nəsimi ili” elan etdiyini deyib.

Ölkə başçısı bununla bağlı rəsmi sərəncam da imzalayıb. Sərəncamda Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsinin bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsində mühüm əhəmiyyətə malik olması qeyd olunub.

Bundan əlavə, ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlərin həyata keçirilməsi və onun ədəbiyyatda, incəsənətdə parlaq obrazının yaradılması, 1979-cu ildə ölkəmizin paytaxtında heykəlinin ucaldılması, eləcə də 2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının keçirilməsi sərəncamda öz əksini tapıb.

Bununla yanaşı, 2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamam olur. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin “Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” 2018-ci il 15 noyabr tarixli, 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılıb.

Beləliklə, ölkə başçısının müvafiq sərəncamı ilə Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığı, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyəti nəzərə alınaraq 2019-cu il Azərbaycan Respublikasında “Nəsimi ili” elan edilib.

Qeyd etmək lazımdır ki, Nəsimi yaradıcılığı klassik ədəbiyyatımızla yanaşı, folklor irsimizin öyrənilməsi, XIII-XIV əsrlərdəki xalq şeiri şəkillərinin hansı mərhələdə olduğunun aydınlaşdırılması, həmin dövrdəki ədəbi dilin müəyyənləşdirilməsi üçün əsaslı rol oynayıb. Şeirimizin xüsusiyyətlərinin formalaşdırılmasında, əruz vəzninin bəhrlərinin dilimizin xüsusiyyətlərinə uyğunlaşdırılmasında müstəsna rolu olan böyük şairin ana dilində ilk tərcibənd, müstəzad və mürəbbelər, orijinal rübai və tuyuqlar yazması, yaradıcılığında xalq şeiri üçün spesifik olan əlamətlərdən, dünya və kainatın yaradılışı ilə bağlı sakral bilikləri əks etdirən folklor nümunələrindən istifadə etməsi onun əsərlərini milli-mənəvi cəhətdən zənginləşdirib.

**Mətbuat xidməti**

*Həkim məsləhəti*

# “DONUZ QRİPİ” – TƏHLÜKƏ MƏNBƏYİ...

Televiziya və mətbuatdan verilən məlumatlara əsasən, son vaxtlar qonşu dövlətlərdə “donuz qripi” virusu kütləvi şəkildə yayılıb. Ölkəmizdə bu virusun əmələ gəlməsi və yayılmasının qarşısını almaq üçün bütün profilaktik tədbirlər həyata keçirilir.

Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumata görə, virus “donuz qripi” adlansa da, əslində, müxtəlif H1N1 viruslarının qarışığından yaranıb - donuz qripi, quş qripi və insan qripi. Bu üzdən viruslara həm donuzların, həm quşların, həm də insanların yoluxması mümkündür. Adi öskürək və asqırıqla ətrafa yayılan damcılar və xəstə insanla yaxın təmas vasitəsilə xəstəlik asanlıqla yayıla bilir.




“Donuz qripi”nə ilk dəfə 2008-ci ilin aprelində Meksikanın La-Qloriya kəndində yaşayan beş yaşlı oğlan Edqar Ernandes donuz ferması yaxınlığında yoluxub.

Həmin vaxtdan dünyanın 135 ölkəsində 134 mindən çox adam bu qripə tutulub ki, onların da 700 nəfərdən çoxu dünyasını dəyişib. Xəstələrin sayı ABŞ, Meksika, Kanada, Böyük Britaniya, Çili və Avstraliyada daha çoxdur. Son zamanlar qonşu ölkələrdə (Gürcüstan və Ermənistan) bu xəstəlik yayılmağa başlayıb.

“Donuz qripi”nin texniki adı belə qəbul olunub: A/H1/N1. “A” tipli qrip virusun nəfəs yolu ilə yoluxması nəticəsində ortaya çıxır və bu xəstəlik sürətlə yayıla bilir.

“Donuz qripi” donuzlarda bütün il boyu özünü büruzə verə bilər.

Xəstəliyə yoluxanlar özlərini əzgin, yorğun hiss edir, boğazları qaşınır, əzələləri ağrıyır, quru öskürək müşahidə olunur. Amma “quş qripi”ndən azacıq fərqi odur ki, bu qripə yoluxanlarda ürəkbulanma və diareya halları tez-tez müşahidə olunmur.

“Donuz qripi”nə qarşı hələlik heç bir peyvənd yoxdur. İndi Dünya Səhiyyə Təşkilatı bu peyvəndi hazırlamaqla məşğuldur. Amma qriplə bağlı önəmli bir xəbər də ondan ibarətdir ki, “quş qripi”nə qarşı təsirli olan tamiflu və relenza kimi dərmanlar “donuz qripi”nə yoluxanlara da müsbət təsir edir. Vaxtında müalicəyə başlayanda, xəstəni sağaltmaq mümkündür.

**Kliniki əlamətləri:**

A/H1N1 tipli qrip yüksək patogenli virus ştamının törətdiyi kəskin infeksion xəstəlikdir. Virus asanlıqla insandan-insana hava-damcı yolu ilə keçir və bir neçə saatdan 7 günə qədər olan müddətdə özünü göstərir. Xəstəliyin ilkin əlamətləri yüksək hərarət, öskürək, boğazda ağrı, zökəm, baş və əzələ ağrıları, bəzi hallarda qusma və diareyadır. A/H1N1 virusu ilə yoluxmuş şəxslər əsasən xəstəliyinin başlandığı ilk 7 gün ərzində potensial yoluxdurucu hesab edilməlidir. Uşaqlar, xüsusən də azyaşlı uşaqlar daha uzun müddət ərzində potensial yoluxdurucu ola bilir. A/H1N1 virus tipi ilə xəstələndiyi təsdiq olunmuş şəxslər xəstəxanaya yerləşdirilmədiyi hallarda və ya xəstələnmə şübhəsi olan şəxslər ev şəraitində, ən azı xəstəliyin başlandığı ilk 7 gün ərzində təcrid edilməlidir.



Xəstəliyin ilkin əlamətləri müşahidə edildikdə təcili həkimə müraciət olunmalı, çoxlu miqdarda maye qəbul etmək, maska və ya pambıq tənzifli maska taxmaq, əlləri tez-tez sabunla yumaq lazımdır. Ailədə xəstə şəxslə təmas zamanı gigiyena qaydalarına əməl edilməlidir. Profilaktiki tədbirlər kimi kəskin respirator xəstəlikləri (hərarət, öskürək, zökəm) və qripin digər əlamətləri olan şəxslərlə yaxın əlaqədən mütləq qorunmaq, əlləri tez-tez sabunla yumaq lazımdır. Mütləq evdə qalmaq, işə və ya təhsil müəssisəsinə getməkdən, kütlə ilə təmasdan çəkinmək, insanlarla təmasa girməmək üçün ailə üzvlərinə və yaxınlara xəstəliklə bağlı məlumat vermək lazımdır.

**A/H1N1 virusundan qorunmaq qaydaları:**

- yüksək hərarəti və öskürəyi olan şəxslərlə təmasdan çəkinmək;
- əlləri tez-tez sabunla yumaq;
- sabun və su olmadıqda əlləri spirtli tampunla silmək;
- asqırdıqda və ya öskürdükdə ağzı salfet və ya dəsmalla örtmək;
- gözlərə, buruna, ağıza toxunmamağa çalışmaq;
- sağlam həyat tərzi keçirmək, o cümlədən normal yuxuya riayət etmək;
- vitaminlərlə zəngin qida qəbul etmək, fiziki aktivliyi artırmaq;
- xəstələnərkən evdə qalmaq və tibbi xidmətə müraciət etmək.

**Hərbi qulluqçuların ailə üzvlərinin və özlərinin ev şəraitində xəstəyə qulluq qaydaları:**

- xəstəni ayrıca otaqda izolə etmək;
- xəstəyə qulluq zamanı birdəfəlik maska və ya respiratordan istifadə etmək,
- dörd saatdan bir onları dəyişmək;
- xəstə ilə hər kontaktdan sonra əlləri sabunla yumaq;
- xəstə olan otağın havasını vaxtaşırı dəyişmək;
- otağı təmiz saxlamaq və ətrafı nəm üsulla yığışdırmaq.

**Hərbi hissələr üzrə aparılan profilaktik tədbirlərə aiddir:**

- soyuq və küləkli havada çöl məşğələlərinin keçirilməsinin məhdudlaşdırılması;
- şəxsi heyətin tam və səmərəli qidalanmasına nəzarətin artırılması;
- kazarmalarda təmizlik işlərinin nəm üsulla gündəlik olaraq aparılması, otaqların düzgün ventilyasiya olunmasının nəzarətdə saxlanılması və temperatur rejiminə ciddi riayət edilməsi;
- kazarmalarda qaynanmış su qablarında daima isti suyun olması və gündəlik olaraq şəxsi heyətin rasiondan əlavə gigiyenik normalar gözlənilməklə isti su qəbul etməsinin təşkil edilməsi;
- hamam tədbirlərinin keçirilməsinin ciddi nəzarətə götürülməsi, şəxsi heyətin soyuqdəymədən qorunması;
- şəxsi heyətin mövsümə uyğun geyim formasında olmasının daima ciddi nəzarətdə saxlanılması;
- şəxsi heyətin soyuq su qəbul etməsinin qadağan edilməsi;
- şəxsi heyətin yerləşdirilməsində sıxlığa yol verilməməsi üçün tədbirlər həyata keçirilməsi və daima nəzarətdə saxlanılması;
- yemək və çayın isti halda verilməsi, o cümlədən, suya, yaxud çaya meyvə və giləmeyvə ekstraktlarının əlavəsi işinin təşkil olunması;
- bölmələrin daima qaynadılmış isti su ilə təminatının təşkil edilməsi;
- hər ay xəstələnmə göstəricilərinin təhlil edilməsi və hissə komandanlığı tərəfindən müvafiq tədbirlərin görülməsi;
- kütləvi xəstələnmə hallarının qarşısının alınması üçün tibbi ləvazimatların ehtiyatının təşkil edilməsi.

**Tibb xidməti polkovnik-leytenantı**
**Vüqar İbrahimov**

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ DAXİLİ QOŞUNLARININ ALİ HƏRBİ MƏKTƏBİNƏ 2019/2020-Cİ TƏDRİS İLİ ÜÇÜN TƏLƏBƏ QƏBULU QAYDALARI



***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm, çağırışçı kimi Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan, buraxılış sinfində oxuyan və ya tam orta təhsilli, qəbul edildiyi ildə 17 yaşı tamam olan və 20 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları (yalnız oğlanlar) sırasından seçilirlər.***

Namizədlər Daxili Qoşunların Baş İdarəsində yaradılmış fiziki hazırlıq, hərbi-həkim və mandat komissiyalarında Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər: turnikdə dartınma - 6 dəfə; qaçış - 100 metr məsafəyə 15 saniyə və 1000 metr məsafəyə 4 dəqiqə; qolların üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə, gövdənin döşəmədən qaldırılıb-endirilməsi - 18 dəfə).

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanlarında iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasına göndərilir.

***İmtahanlar test üsulu ilə, 3-cü ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.***

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurası tərəfindən müəyyən edilir. Namizədlər bu məqsədlə mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul olunmuş şəxslər dövlət hesabına geyim forması, yataqxana və yeməklə təmin edilirlər. Məktəbdə tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 4 ildir.

***Məktəbi müvəffəqiyyətlə bitirmiş məzunlara “İctimai təhlükəsizlik və idarəetmə” ixtisası və “leytenant” hərbi rütbəsi verilərək, Daxili Qoşunlarda müvafiq vəzifələrə təyin edilirlər.***

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan, 2019-cu ilin aprel və iyul çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də Daxili Qoşunlarda xidmətə qəbul üçün müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən şəxslər Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul edilmirlər.

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul üçün namizədlər Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə (ünvan: Bakı şəhəri, Binəqədi rayonu, Q.Musabəyov küçəsi 4) aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:***

- ***şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***
- ***təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında arayış və ya tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);***
- ***yaşayış yeri üzrə tibb müəssisəsindən sağlamlıq haqqında arayış;***
- ***ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);***
- ***oxuduğu təhsil müəssisəsi tərəfindən verilmiş xasiyyətnamə;***
- ***9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

***Ərizə və sənədlərin qəbulu 2019-cu il martın 1-dən aprelin 10-dək (bayram və bazar günləri istisna olmaqla) hər gün saat 10:00-dan 17:00-dək həyata keçiriləcək.***

***Məlumat üçün əlaqə telefonları: (012)-590-65-07, (012)-560-27-00.***

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Azərbaycan sülhməramlıları Cənubi Sudana yola düşüb

Azərbaycan Ordusunun iki zabiti BMT-nin mandatı altında həyata keçirilən sülhməramlı missiyada hərbi müşahidəçi qismində iştirak etmək üçün Cənubi Sudana göndərilib.

Bu barədə “AzeriDefence”yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Qeyd edək ki, keçən il noyabrın 30-da Silahlı Qüvvələrin 4 nəfərdən ibarət hərbi heyətinin BMT-nin sülhməramlı missiyasının (UNMİSS) komandanlığı altında Cənubi Sudan Respublikasında yerləşdirilməsinə və missiyada iştirak etməsinə razılıq verilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı qəbul olunub.

UNMISS
United Nations Mission in South Sudan

## Allah rəhmət eləsin

67987 saylı hərbi hissənin komandanlığı polkovnik-leytenant Variz Nəcəfova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar Şurası ehtiyatda olan baş gizir Akif Məhərrəmova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000